*Aynurə İnci*

# Küsdüm



Bir zaman susmayan, şeirlə dinən,
"Getmə ,qal,"- deməyən dilinə küsdüm.
...Ovcunda duası geriyə dönən,
qəlbintək buz tutan əlinə küsdüm.

...ömrün çiçəklənən bahar çağında,
xəyalınla birgə qəm otağında,
sevginlə bəslənən ürək bağında
qönçəykən tez solan gülünə küsdüm.

Həmişə bizimlə var sandığımız...
Verdiyi vədlərə inandığımız.
...birlikdə alışıb bir yandığımız
eşqin alovuna, külünə küsdüm.

Ümid qapısına qıfıl vuruldu...
...sevginin boynuna hicran sarıldı!
Əcəlmi gecikdi, yolda yoruldu?
Bizi ayırmayan ölümə küsdüm.

# Qələmlə dərdləşən oldum

...qələmlə vərəqə yoldaş olarkən
duyğular köç etdi misralar üstə.
...xəyalım keçmişə qanad açanda
kövrəldi ürəkdə söz dəstə-dəstə.

Ömrümün bağında nə yellər əsdi...
Qaya parçasıtəksərtələşən oldum.
Uğursuz günlərim yadıma düşdü...
...qələmlə, vərəqlə dərdləşən oldum.

İstədim vəsf edim düşən axşamdan...
Qəriblik gecətək çökdü qəlbimə.
...sayrışan ulduza dikilən gözüm
"Həyat xəritəsin" çəkdi qəlbimə.

...yazarkan ömürdən ötən illəri,
közərən dərdlərə əsən yel oldu.
...yağıştək çilənən xoş xatirələr
könüldən gözümə daşan sel oldu.

Türküstan.- 2021.- 6-12 iyul.- S.15.